AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 96

Bakı şəhəri "16" sentyabr 2014-cü il

**"Respublikada qızılca xəstəliyinə qarşı immunlaşdırma tədbirlərinin keçirilməsi barədə"**

Azərbaycan Respublikası Ümumdünya Səhiyyə Təşkilatının 2015-ci ilə qədər Avropa regionunda qızılca və məxmərək xəstəliklərinin eliminasiyasına nail olmaq məqsədinə qoşulmuşdur.

Bununla əlaqədar ölkədə aparılmış geniş profilaktik tədbirlər nəticəsində son illərdə qızılca və məxmərək xəstəlikləri qeydə alınmamışdır.

2013-cü ildə Avropanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanla həmsərhəd olan Gürcüstan və Rusiya Federasiyasında qızılca xəstəliyinin alovlanması baş vermişdir. Azərbaycanda da gətirilmə hadisələri ilə əlaqəli olan xəstəlik halları qeydə alınmışdır.

Qeyd olunanlarla əlaqədar qızılca xəstəliyinin profilaktikası sahəsində tədbirlərin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Qızılca hadisələri qeydə alınmış Bakı, Sumqayıt şəhərlərində, Abşeron və Ağcabədi rayonlarında 11-15 yaşlı uşaqlar arasında 2014-cü ilin oktyabr ayının 14-28 tarixlərində qızılca və məxmərəyə qarşı İmmunlaşdırma Kampaniyası, digər rayonlarda isə təmizləyici immunlaşdırma tədbirləri keçirilsin.

2. Bakı və Sumqayıt şəhər səhiyyə idarələrinin, Abşeron və Ağcabədi rayon mərkəzi xəstəxanalarının rəhbərlərinə tapşırılsın:

2.1. xidmət göstərdikləri ərazilərdə yaşayan 11-15 yaşlı bütün uşaqların siyahıları, o cümlədən məktəblər üzrə hazırlansın;

2.2. İmmunlaşdırma kampaniyasının həyata keçirilməsi üçün həkim-pediatr, orta tibb işçisi (vaksinator) və tibb qeydiyyatçısından ibarət briqadalar təşkil edilsin;

2.3. məktəb rəhbərləri ilə birgə peyvənd aparılacaq tibb məntəqələrində müvafiq şəraitin yaradılması təşkil edilsin;

2.4. tədbirdə iştirak edəcək peyvənd briqadalarının hər biri şok əleyhinə dəstlər və termoçantalarla təchiz edilsin;

2.5. peyvənddən sonra baş verən xoşagəlməz reaksiya və ağırlaşmalar barədə operativ məlumatın Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə verilməsi təmin edilsin.

3. Respublikanın şəhər və rayonlarının tibb idarə və mərkəzi xəstəxanalarının rəhbərlərinə tapşırılsın ki, bu əmrin 1-ci bəndinə uyğun olaraq immunlaşdırma tədbirlərinin həyata keçirilməsi məqsədi ilə hazırlıq işləri görülsün.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

4.1. immunlaşdırma tədbirlərinin həyata keçirilməsində yerli tibb müəssisələrinə metodiki və təcrübi köməklik göstərilsin;

4.2. İmmunlaşdırma kampaniyası zamanı mütəmadi monitorinqlərin keçirilməsi məqsədi ilə adı çəkilən şəhər və rayonlar üzrə məsul şəxslər təyin edilsin;

4.3. immunlaşdırma tədbirlərinin yekun nəticələri haqqında məlumat 15 noyabr 2014-cü il tarixədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, Səhiyyə Nazirliyinin bölgüsünə əsasən qızılca/məxmərək vaksininin yerlərə çatdırılması təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**